# Dövlət Statistika Komitəsində "Daxili və xarici ticarət statistikasında baş verən islahatlar" mövzusunda seminar keçirilmişdir



2014-cü il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planının icrası ilə əlaqədar olaraq 24 noyabr 2014-cü il tarixində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin inzibati binasında Aparatın Ticarət və turizm statistikası şöbəsinin təşkilatçılığı ilə "Daxili və xarici ticarət statistikasında baş verən islahatlar" mövzusunda seminar keçirilmişdir. Seminarda Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun, İqtisadiyyat və Sənaye Nazirliyinin, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun, Mərkəzi Bankın Statistika Departamentinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Maliyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Təhsil Nazirliyinin, Dövlət İqtisad Universiteti, "İqtisadiyyat" qəzetinin, İctimai Televiziya və Radio Yayımları Şirkətinin əməkdaşları, eyni zamanda, Dövlətstatkomun, Baş Hesablama Mərkəzinin və Bakı şəhər statistika idarəsinin müvafiq sahələrlə məşğul olan mütəxəssisləri iştirak etmişlər.



Seminarda istifadəçilərə daxili və xarici ticarət statistikasında baş verən islahatlar haqqında, o cümlədən Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmış ticarət şəbəkələrində realizə olunmuş yerli, idxal və qeyri-neft məhsullarının ixracının və idxalının həcminin dinamikasının yaradılması və müqayisəsi, mövcud hesabatların və bülletenlərin onlayn təqdimi, metaməlumatların məlumat bazasına daxil edilməsi, Komitənin internet səhifəsində interaktiv cədvəllərin yerləşdirilməsi və istifadəçilərin ondan istifadəsi, fiziki şəxslər tərəfindən idxal-ixrac olunan malların həcminə strukturuna dair məlumatların əldə edilməsi məqsədilə aparılmış statistik müayinənin nəticələri, xarici ticarətdə 2012-ci il HS mal nomenklaturasının tətbiqi, xarici ticarət, idxal-ixracın fiziki həcm indekslərinin hesablanmasına dair metodologiya, pərakəndə ticarət dövriyyəsinin tam həcminin hesablanmasına dair hazırlanmış metodologiyanın ingilis dilinə tərcümə olunaraq yayım məkanlarında yerləşdirilməsi, turizm statistikasında baş vermiş islahatlar və s. barədə istifadəçilərə ətraflı məlumat verilmişdir.



Aparılmış islahatlarla yanaşı istifadəçilərə ticarət və turizm statistikası üzrə gələcək inkişaf perspektivləri barədə, o cümlədən elektron turizm xidmətlərinin uçotunun təşkili, sahələrin subyektlərinin hesabat göstəriciləri üzrə yükünün azaldılması məqsədilə onların təqdim edəcəyi statistik göstəricilər sisteminin maketinin hazırlanması, statistik hesabat sistemindən göstəricilər sisteminə keçidin təşkili, xarici ticarət statistikasında mövsümilik indekslərinin hesablanması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və hesablanması, BMT-nin statistika şöbəsinin "Malların beynəlxalq ticarət statistikası" tövsiyələrinə uyğun olaraq mallarla xarici ticarət statistikası üzrə metodoloji yanaşmaların təkmilləşdirilməsi, BMT-nin statistika şöbəsinin "Pərakəndə və topdansatış ticarət statistikası üzrə tövsiyələr"ə uyğun olaraq, daxili ticarət statistikası üzrə metodoloji yanaşmaların təkmilləşdirilməsi, turizm statistikasına dair göstəricilər

sisteminin BMT-nin Statistika şöbəsi və Ümumdünya Turizm Təşkilatının turizm statistikasına dair metodologiyalarına uyğun təkmilləşdirilməsi haqqında da məlumat verilmişdir.

Görüşdə ayrı-ayrı istifadəçilərin çıxışları dinlənilmiş, təklifləri müzakirə edilmiş, onların ayrı-ayrı statistik məlumatlara ehtiyacları olduğu bildirilmiş və onların bu məlumatlarla təmin olunacaqları barədə razılıq əldə olunmuşdur. Görüş işgüzar səviyyədə keçmiş və nəticədə gələcəkdə də belə görüşlərin keçirilməsi məqsədəuyğun hesab edilmişdir.